# "EL SEVƏNİ ALƏM SEVƏR"

**Yaxın dostum şair-publisist Səməndər Məmmədov bir neçə gün bundan əvvəl mənə bir kitab bağışladı. Ümumiyyətlə, o, həmişə yeni çapdan çıxmış kitablarını mənə hədiyyə edir. Təbii ki, indiki kitab bolluğunda hər kitabı oxumaq mümkün deyil. Ən azından ona görə ki, gərək kitab da kitab ola. Amma sözün həqiqi mənasında Səməndər Məmmədovun müxtəlif dövrlərdə çapdan çıxmış 10-dan çox kitabı öz oxunaqlığı, dil-üslub xüsusiyyətləriylə fərqlənir.**




Bu günlərdə "Elm və Təhsil" nəşriyyatı tərəfindən işıq üzü görmüş "El sevəni aləm sevər" IV kitabını nəşrə hazırlayanı və redaktoru "Əməkdar mədəniyyət işçisi" Musa Nəbioğludur. Bu kitab da əvvəlki qələmə aldığı kitablar qədər maraqlı, məzmunlu və oxunaqlıdı. Elə bir axşamda həmin kitabda toplanmış bütün yazıları bir nəfəsə oxudum. Onu da qeyd edək ki, Səməndər müəllim bu kitabda görkəmli dövlət, elm və sənət adamları, eləcə də müxtəlif peşə sahibləri haqqında çox maraqlı oçerklər qələmə alıb. Və bu oçerklərdə bayaq dediyimiz kimi, ayrı-ayrı tarixi şəxsiyyətlərin, müdrik insanların portretləri yaradılıb.

Kitabda "Kremlə sancılmış Türk bayrağı", "Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti uğurla davam etdirilir", "Müəllimlər müəllimi", "Ölüm bilsəydi ki, kimi öldürür, özü ölərdi xəcalətindən", "Borçalının bülbülü", "Torpağın Məcnunu", "Saflıq gendən gəlir", "Saz ömür və dadından doyulmayan saz ömrü yaşa, əmioğlu!", "Harda nur varsa mən də varam" və digər oçerklər sözün həqiqi mənasında orijinal bir formada qələmə alınıb. Təsvir olunan şəxslərin həyatı çox səmimi və yaddaqalan detallarla oxucunun ürəyində əbədi iz qoyur.

Kitabın ilk səhifəsində Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "Kremlə sancılmış Türk bayrağı" oçerkində müəllif böyük tarixi şəxsiyyətin görünən və görünməyən tərəflərini özünəməxsus bir formada qələmə alıb. Həmin oçerkdən oxuyuruq: " Heydər Əliyev Moskvadan Azərbaycana dönüşündə məşhur gürcü jurnalistlərdən biri onunla apardığı müsahibəyə belə bir sərlövhə qoymuşdu: "Odlar Yurdu pələnginin biləkləri hələ bükülməmişdi". Çox uğurlu başlıq idi. Bütün sonrakı hadisələr, Ulu Öndərin fəaliyyəti, ölkəmizin inkişafı naminə gördüyü işlər sübut etdi ki, Heydər Əlirza oğlu Əliyev bükülməz biləkli çox böyük şəxsiyyətdir. Elə bir adam yoxdur ki, bu həqiqəti qəbul etməsin. Bir dəfə professor Qulu Xəlilov televiziya çıxışlarının birində belə bir müdrik kəlamı xatırlatdı ki, mən böyük ağıl qarşısında baş əyirəm, böyük ürək qarşısında isə diz çökürəm. Heydər Əliyev böyük ağıl və böyük ürək sahibi idi."

Ümumiyyətlə, Səməndər Məmmədov hansı mövzuda yazırsa, ona öz ürəyinin işığını, nurunu və sevgisini qatır. Elə ona görə də kitabda çap olunmuş oçerklər çox şirin, çox bədii, çox də ürəklərə yatımlı yazılardır. O öz müəllimi, böyük pedaqoq, böyük ziyalı, böyük şəxsiyyət və professor Mir Cəlal Paşayev haqqında da çox unikal və yaddaqalan fikirlər qələmə alıb. Həmin yazının sərlövhəsi belə adlanır: "Müəllimlər müəllimi". Oçerkdən bir parçanı oxucuların nəzərinə çatdırmaq istəyirik: "Mir Cəlal müəllim tələbələrə təkcə dərs deməklə kifayətlənmir, onların məişət qayğılarından tutmuş, digər problemlərinə qədər hər şeylə maraqlanır, onlara kömək edir, düz yol göstərirdi. "Ədəbiyyatşünaslığın əsasları" kursunun tədrisinə başlayanda tələbələrin hansı bölgədən olması ilə maraqlanırdı. Borçalıdan olan tələbələrə böyük rəğbət bəsləyər, dostlarım - Azərbaycan Yazıçılar Birliyinin katibi olmuş mərhum Arif Əmrahoğlu, mifoloq alim Arif Acalov və digər qabiliyyətli tələbələrlə fəxr edərək deyərdi: "Bizdə, adətən borçalılar yaxşı oxuyur". Elə bu rəğbətin nəticəsi idi ki, özünün təşəbbüsü ilə bir gün bizimlə şəhərə gəzintiyə çıxdı. Həmin gün həyatımın ən əziz və unudulmaz anı, çəkdirdiyimiz xatirə şəkli isə o illərin ən qiymətli yadigarıdır "

Azərbaycan ədəbiyyatında öz şeirləri və şəxsiyyəti ilə böyük iz qoymuş Zəlimxan Yaqub haqqında da Səməndər Məmmədov çox səmimi və ürəkləri silkələyən oçerk yazıb: "Ölüm bilsəydi ki, kimi öldürür, özü ölərdi xəcalətindən". Bizim rəhmətlik Zəlimxan Yaqubla çox yaxın dostluğumuz olub. O nə qədər böyük şair idisə, bir o qədər də böyük insan, böyük ziyalı idi. Zəlimxan Yaqub yeganə şairlərdən idi ki, həm klassik, həm də müasir Azərbaycan şairlərinin çoxunun şeirlərini əzbər deyərdi. Və Səməndər Məmmədov da bu oçerkdə Zəlimxan Yaqubun dahiliyini, böyüklüyünü bu xalqa, bu millətə ürəkdən necə bağlı olduğunu incəliyinə qədər təsvir edə bilib. Bu oçerkdə də çox maraqlı məqamlar və yaddaqalan anlar vardır.

Müəllif oçerkdə yazır: "Zəlimxan Yaqub Allah verən ömrü şərəflə yaşadı. Şərəfi qoruya-qoruya yaşamaq, şərəflə yaşamaq hər adama qismət olmur. Zəlimxan Yaqub xalqını sevdi, mədəniyyətini sevdi və dövlətini sevdi. Vurğunu olduğu müqəddəs vətəninin pərvanəsinə çevrildi. Zəlimxan Yaqubdan nə qədər yazsaq, ünvanına nə qədər gözəl sözlər işlətsək, onun aydan arı, sudan duru, torpağın təkindən büllur bulaq kimi qaynayan poeziyası deyilən sözlərdən yüksəkdə durur. Bax, budur Zəlimxan Yaqub möcüzəsi!"

Yazımızın əvvəlində qeyd eləmişdik ki, şair-publisist Səməndər Məmmədov hər yazıya öz ürəyinin atəşini qatıb. Bax, budur onun atəşi, sözə, sənətə, şeirə və şəxsiyyətə olan ülvi, böyük məhəbbəti! Çünki Səməndər Məmmədovun iç dünyası da poeziyayla, şeirlə, qoşmayla, bayatıyla, təcnislə, dodaqdəyməzlə doludur. Onun işığı bu şeirin, bu deyimlərin nuru istər-istəməz Səməndərin qələmində yenidən ağ vərəqə köçür və oxucunun qəlbində, ürəyində böyük bir sevgi, məhəbbət yaradır.

**İnanırıq ki, şair-publisist Səməndər Məmmədovun "El sevəni aləm sevər" (IV kitabı) digər kitablar kimi oxucuların ürəyinə yol tapacaq və bu kitabı vərəqləyən hər hansı ziyalı, oxucu heç vaxt "xərclədiyi" vaxt üçün təəssüflənməyəcək. Əksinə, sevinəcək ki, nə yaxşı bu kitabı vərəqlədi. Dahi, tanınmış və məşhur şəxslərin həyatının işığına bələndilər. Bundan gözəl nə ola bilər?!**

**Faiq QİSMƏTOĞLU**

ədalət.-2017.-10 mart.-S.3.